**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_________dos. Zaur Məmmədov
"09" 09 2025-ci il

**Fənn sillabusu**

**İxtisas:** 050402 - Biznesin idarə edilməsi, 050810 -Turizm işinin təşkili, 050409 -Mühasibat, 050406 - Maliyyə, 050407 - Marketinq, 050405 - İqtisadiyyat, 050408 - Menecment, 050809 - Turizm bələdçiliyi
**Fakültə**: İqtisadiyyat və idarəetmə
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat**:
**Fənnin adı: Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.** Fənn üzrə proqram Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 19.09.2022-ci il tarixli 556 saylı əmrinə əsasən çap edilmişdir.
**Kodu: HF-B03**
**Tədris ili:** I (2025-2026) Semestr: I
**Tədris yükü cəmi**: Auditoriya saatı 14 saat (Seminar 14 saat)
**Təhsilalma forması:** Qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**Auditoriya №**
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmi dərəcəsi və elmi adı: b/m.**İbrahimova Leyla Tofiq qızı
**Məsləhət günləri və saatı:** II gün
**E-mail ünvanı:** lleyla_88@list.ru
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas ədəbiyyat** :
1.N.Məmmədli. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, 2021
2.Böyükxanım Eminli, Günel Paşayeva. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Sumqayıt Dövlət universiteti., Sumqayıt, 2021, 400 s.
T.Əbdülhəsənli, A.Hüseynova "İşgüzar Azərbaycan dili" Bakı, 2006
3.Səlimova N. İşgüzar yazışmalar. Ali məktəblər üçün metodik vəsait. Bakı Biznes Universitetinin nəşriyyatı Bakı: 2017
4.Musayev E. Kargüzarliğin təşkili. Bakı, "Qanun", 2012
**Əlavə ədəbiyyat:**
5. N.Abdullayev, Z.Məmmədov " Nitq mədəniyyətinin əsasları" Bakı, 2005
6.A.Bayramov, Z.Məhərrəmov, M.İsgəndərzadə. Azərbaycan dili və nitq mədəniyyəti, Bakı, 2015
7.Balakişiyev Ş. Namazov Ə. Əməli yazı nümunələri Bakı: 2006
8. İnternet resursları.
**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisi vacib deyil.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Azərbaycan dili Azərbaycan millətinin ana dili, Azərbaycan Respublikasının dövlət dilidir. İxtisasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öz ana

dilində düzgün yazmağı və fikir ifadə etməyi bacarmalıdır. Bu məqsədlə "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni dilimizdən həm şifahi, həm də yazılı formada düzgün, məntiqi, aydın şəkildə istifadə edilməsini öyrətmək baxımından çox əhəmiyyətlidir. Tədris prosesində fənnin tələbinə görə kommunikasiya haqqında məlumat vermək, hər bir dil vahidindən düzgün istifadə etmək və tələbələrdə müstəqil təqdimatlar etmək, işgüzar və akademik yazı bacarıqlarını formalaşdırmaq ön plana çəkilir.

"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya " fənnin məqsədi tələbələrə işgüzar və akademik yazı bacarıqlarını, kommunikasiyanın elmi əsaslarını, dilimizdən düzgün, məntiqi, aydın şəkildə istifadə edilməsini öyrətməkdir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X.Təqvim mövzu planı:** *Seminar 14 saat.* ***Cəmi: 14 saat***

| № | Keçirilən seminar mövzularının məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | **Mövzu: "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti, məqsəd və vəzifələri. Azərbaycan dili anlayışı. Dilimizə dövlət qayğısı.**<br>**Plan:**<br>1. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti.<br>2. Fənnin məqsəd və vəzifələri.<br>3. 1. Azərbaycan dili anlayışı.<br>4. Azərbaycan dilinə dövlət qayğısı.<br>5. Ulu öndər H.Əliyevin Azərbaycan dilinin inkişafında xidmətləri.<br>Fənnin tədrisinin əhəmiyyəti.<br>**Mənbə: [1,2,5,6]** | **2** | |
| 2. | **Mövzu: Kommunikasiya anlayışı. Verbal və qeyri-verbal kommunikasiya. İşgüzar kommunikasiyada etiket qaydaları.**<br>**Plan:**<br>1. Kommunikasiya anlayışı.<br>2.Verbal kommunikasiya, onun formaları.<br>3. Qeyri-verbal kommunikasiya.<br>4.Müraciət etiketləri.<br>5.Görüşmə, ayrılma və təbrik etiketləri.<br>**Mənbə: [1,2,5,6]** | **2** | |
| 3. | **Mövzu: İşgüzar və akademik kommunikasiyada natiqlik. İşgüzar və akademik kommunikasiyada nitqin əsas keyfiyyətləri.**<br>**Plan:**<br>1. Natiqlik ənənələri.<br>2. Natiqlik sənətinin sahələri.<br>3. İctimai natiqlik.<br>4. Natiqlik sənətinin başqa elmlərlə əlaqəsi.<br>5.Kommunikasiyada nitqin əsas keyfiyyətləri.<br>6.Kommunikasiyada nitqi zəiflədən amillər.<br>**Mənbə: [1,2,3,4,5,6]** | **2** | |
| 4. | **Mövzu: İşgüzar və akademik kommunikasiyada norma. Azərbaycan ədəbi dilinin normaları. Fonetik norma.**<br>**Plan:**<br>1. Norma anlayışı.<br>2. Ümumxalq dili və ədəbi dil.<br>3. Azərbaycan ədəbi dilinin normaları,<br>4. Fonetik norma, onun xüsusiyyətləri: orfoepik və orfoqrafik norma.<br>5. Mürəkkəb adların yazılışı və ixtisarı.<br>6.Kommunikasiyada leksik normanın xüsusiyyətləri<br>7. Semantik söz qruplarından (çoxmənalı sözlər, omonimlər, sinonimlər, antonimlər) leksik normaya uyğun istifadə.<br>8.Leksik normanı pozan söz qrupları.<br>9.Qrammatik norma.<br>10.Morfoloji norma.<br>11.Sintaktik norma.<br>Mənbə: [1,2,3,5,6,7] | **2** | |
| 5. | **Mövzu: İşgüzar və akademik kommunikasiyada funksional üslublar.**<br>**Plan:**<br>1. Üslub anlayışı.<br>2. Ədəbi dilin funksional üslubları.<br>3. Üslubi normalar. | **2** | |

| | | | |
|---|---|---|---|
| | 4. Rəsmi-işgüzar üslub, onun xüsusiyyətləri.<br>5. Rəsmi sənədlər.<br>6. İşgüzar sənədlər.<br>7. İşgüzar yazışmalar.<br>8. Onlayn kommunikasiya və elektron yazışmalar.<br>**Mənbə: [1,2,3,5,6]** | | |
| 6. | **Mövzu: İşgüzar kommunikasiyada sənədlər.**<br>**Plan:**<br>1. Tərcümeyi-halın mahiyyəti, məzmunu və forması.<br>2. Xasiyyətnamənin mahiyyəti, məzmunu, forması və dil xüsusiyyətləri.<br>3. CV-nin mahiyyəti, tərtib qaydaları.<br>4. Təqdimatın mahiyyəti, məzmunu və forması.<br>5. Ərizənin mahiyyəti, məzmunu və forması.<br>6. İzahatın mahiyyəti, məzmunu, forması.<br>7. Protokolun mahiyyəti, məzmunu və forması.<br>8. Etibarnamənin mahiyyəti, məzmunu, forması və dil xüsusiyyətləri.<br>9. Aktın mahiyyəti, məzmunu və forması<br>10. Hesabatın mahiyyəti, məzmunu və forması.<br>11. İşgüzar kommunikasiyada reklam, elan və bildirişlər | **2** | |
| 7. | **Mövzu: Akademik kommunikasiya.**<br>Plan:<br>1. Şifahi akademik kommunikasiya.<br>2. Yazılı akademik kommunikasiya.<br>3.Yazılı elmi mətnlər: kurs işi, tezis<br>4.Yazılı elmi mətnlər: xülasə, məqalə<br>5.Yazılı elmi mətnlər: diplom (buraxılış) işi.<br>Mənbə: [1,2,3,5,6] | **1** | |

**XI. Fənn üzrə tələblər:** Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənnini öyrənməklə tələbələr fənnin mahiyyəti, məqsəd və vəzifələrini, Azərbaycan dili anlayışı, kommunikasiya anlayışı, işgüzar kommunikasiyada etiket qaydalarını, natiqliyi, nitqin əsas keyfiyyətlərini, ədəbi dilin norma və üslublarını, işgüzar sənədləri, akademik kommunikasiyanı, yazılı elmi mətnləri mənimsəməli və tətbiq etməyi bacarmalıdır.

**XII. Fənn üzrə təlimin nəticələri:**

-Tələbələr Azərbaycan dili fənni üzrə bilikləri kommunikasiyaya tətbiq edir.

-Dərslikdə hər bir mövzuya aid mətn verilmiş və tələbələr xüsusi sual və tapşırıqları yerinə yetirməklə mövzular üzrə icraçı rolu oynayır.

-Bu fənni mənimsəməklə tələbələrdə ana dilinin qanun və kateqoriyalarını kommunikasiya ilə əlaqələndirmə bacarığı olur.

- Fənni mənimsəməklə tələbələr ana dilinin normalarına, üslublarına aid bacarıq və vərdişlərini daha da inkişaf etdirirlər.

- Tələbələrin nitq inkişafı üçün onlara ev oxusu və esse yazmaq təklif olunur.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

1. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti, məqsəd və vəzifələri
2. Dil və nitq
3. Azərbaycan dili anlayışı. Azərbaycan dilinə dövlət qayğısı
4. Kommunikasiya anlayışı
5. Verbal və qeyri-verbal kommunikasiya
6. Nitqin növləri
7. İşgüzar kommunikasiyada etiket qaydaları
8. İşgüzar və akademik kommunikasiyada natiqlik
9. Natiqlik sənətinin sahələri

10. Kommunikasiyada nitqin əsas keyfiyyətləri və nitqi zəiflədən amillər

## XV. İmtahan sualları:

1. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti, məqsəd və vəzifələri
2. Dil və nitq
3. Azərbaycan dili anlayışı. Azərbaycan dilinə dövlət qayğısı
4. Kommunikasiya anlayışı
5. Verbal və qeyri-verbal kommunikasiya
6. Nitqin növləri
7. İşgüzar kommunikasiyada etiket qaydaları
8. İşgüzar və akademik kommunikasiyada natiqlik
9. Natiqlik sənətinin sahələri
10. Kommunikasiyada nitqin əsas keyfiyyətləri və nitqi zəiflədən amillər
11. Norma anlayışı. Azərbaycan ədəbi dilinin normaları
12. Ümumxalq dili və ədəbi dil
13. İşgüzar və akademik kommunikasiyada norma: fonetik norma
14. Mürəkkəb adların yazılışı və ixtisarı
15. Durğu işarələri
16. İşgüzar və akademik kommunikasiyada norma: leksik norma
17. Semantik söz qruplarından (çoxmənalı sözlər, omonimlər, sinonimlər, antonimlər) leksik normaya uyğun istifadə
18. Leksik normanı pozan söz qrupları
19. İşgüzar və akademik kommunikasiyada norma: qrammatik norma( morfoloji və sintaktik)
20. Üslub anlayışı
21. İşgüzar və akademik kommunikasiyada funksional üslublar
22. Funksional üslublar. Rəsmi-işgüzar üslub
23. Onlayn kommunikasiya, elektron yazışmalar
24. İşgüzar kommunikasiyada sənədlər: tərcümeyi-hal, xasiyyətnamə
25. İşgüzar kommunikasiyada sənədlər: CV, təqdimat
26. İşgüzar kommunikasiyada sənədlər: ərizə, izahat
27. İşgüzar kommunikasiyada sənədlər: akt, etibarnamə
28. İşgüzar kommunikasiyada elan, reklam və bildirişlər
29. Şifahi və yazılı akademik kommunikasiya
30. Yazılı elmi mətnlər: kurs işi, tezis, məqalə

"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin sillabusu **050402 - Biznesin idarə edilməsi, 050810 -Turizm işinin təşkili, 050409 -Mühasibat, 050406 - Maliyyə, 050407 - Marketinq, 050405 - İqtisadiyyat, 050408 - Menecment, 050809 -Turizm bələdçiliyi** ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. "Azərbaycan dili və ədəbiyyat" kafedrasının 9 sentyabr 2025-ciii il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 1 ).

**Fənn müəllimi:** **b/m.L.T.İbrahimova**

**Kafedra müdiri:** **dos. Q.İ.Rufullayev**

Tanış oldum! [illegible] dos. E.S. Mirzəyev